# İlham Əliyev Qərbin məkrini darmadağın edir

## Azərbaycana təsir və ya təzyiq etmək mümkün deyil

Təcrübə və reallıq göstərir ki, Qərb ölkələri, xüsusən ABŞ, Fransa özlərini "demokratiyanın carçısı" kimi göstərməyə çalışsalar da, keçmişdə olduğu kimi, bu gün də ayrı-ayrı dövlətlərə və xalqlara müharibədən, səfalətdən, iztirabdan başqa heç nə vermirlər. Son onilliklərdə Suriyada, İraqda, Əfqanıstanda, Afrikanın müxtəlif ölkələrində baş verən və hələ də bitməyən münaqişələr, savaşlar Qərbin "demokratiya" və ya "terrorla mübarizə" pərdəsi altında öz imperialist maraqlarını həyata keçirməsini təsdiqləyir.

ABŞ özünü "demokratik ideallara sadiq" dövlət hesab edir. Lakin dünyaya demokratiya dərsi keçməkdə iddialı olan bu ölkənin yerləşdiyi coğrafiyanın yerli sakinlərinə qarşı tarixən hansı zorakılıqlar göstərdiyi məlumdur. Hinduları əsrlər boyu öz torpaqlarından Şimali Amerikanın qərbinə, yaşayış üçün əlverişsiz şəraiti olan torpaqlara qovublar, onlara qarşı soyqırımları törədiblər. 3 milyondan çox hindunun soyqırımına məruz qaldığı məlumdur. Bu gün də ABŞ-də yerli hindulara qarşı diskriminasiya davam edir və bu barədə kifayət qədər faktlar var.

Yaxud ABŞ-də əsrlər boyu afrikaəsilli qaradərililərə qarşı irqi ayrı-seçkilik hökm sürüb, onlara qarşı alçaldıcı münasibət göstərilib. XIX əsrə qədər ABŞ-yə Afrikadan 12 milyondan çox kölə gətirilib. Düzdür, köləlik ABŞ-də rəsmən 1865-ci ildə qadağan edilib. Lakin irqi və dini, o cümlədən dini ayrı-seçkilik və dözümsüzlük bu ölkədə müasir dövrümüzdə də davam edir.

Məsələn, ABŞ-də polis tərəfindən həbs edilənlərin, atəş açılanların, öldürülənlərin yarıdan çoxu qaradərilidir. Baxmayaraq ki, ABŞ-də onların say nisbəti digər irqlərdən olanlarla müqayisədə dəfələrlə azdır. ABŞ-də gənc yaşlarında olan qaradərililərin üçdəbiri həbsxanalardadır.

Fransa da əsrlər boyu dünyanın müxtəlif yerlərində həyata keçirdiyi insanlıq əleyhinə olan cinayətlərlə ABŞ-dən geri qalmır. Bu ölkə 1830-1962-ci illəri əhatə edən işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetirib. Buna görə Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Ümumilikdə 10 milyona yaxın əlcəzairli Fransanın müstəmləkəçilik dövrünün qurbanı olub.

Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur. Prezident İlham Əliyevin keçən ay Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına göndərdiyi məktubda bu barədə deyilir: "Əsrlər keçsə də, təfəkkür dəyişmədiyi üçün Fransa kolonializminin utancverici yeni metodları bu gün də davam etməkdədir. Bu konfransa toplaşan dənizaşırı ərazilərin xalqları uzun illərdir müstəqillik uğrunda mübarizə aparırlar. Kolonializm tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır".

Tarix həm də onu göstərir ki, istər ABŞ, istərsə də Fransa müxtəlif adlar altında törətdikləri cinayətkar əməllərlə, o cümlədən demokratiya pərdəsi altında demək olar ki, yalnız xristian dininə bağlı olmayan xalqları fəlakətlərə sürükləyiblər, onları öz milli dəyərlərindən uzaqlaşdırıblar, hətta bəzilərini manqurtlaşdırıblar. Qeyri-xristian xalqlar bu gün də Qərbin riyakarlığı ilə üz-üzədir.

Eyni zamanda indinin özündə beynəlxalq münasibətlərdə Qərbin riyakarlığından, beynəlxalq hüquqa olan hörmətsizliyindən və neoimperializm niyyətlərindən irəli gələn bir ab-hava hökm sürməkdədir. Yaxın Şərqdə və Ukraynada baş verənlər məhz Qərb siyasi mərkəzlərinin hərbi-siyasi oyunbazlıqlarının, dövlətlər və xalqlar arasında yaratdıqları ixtilaf və uçurumların nəticəsidir.

Azərbaycan da uzun illərdi ki, Qərbin məkrli davranışları, ikili standartları ilə üz-üzədir. Uzun illər Azərbaycan torpaqları işğal altında olsa da, bəlli siyasi mərkəzlər ilk gündən əsl həqiqəti dilə gətirməkdən uzaq olublar. Qarabağ bütün dünyada Azərbaycan torpağı kimi tanınsa da, BMT Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamə qəbul etsə də, işğalçı və işğala məruz qalan gün kimi aydın olsa da, ABŞ və Fransa hər zaman ikili standartlardan çıxış ediblər. Bu mənada İkinci Qarabağ savaşından sonra yaranan yeni reallıqlar həm də belə bir həqiqəti təsdiq edir ki, ABŞ və Fransa ATƏT-in Minsk qrupu kimi həmsədrlikləri dövründə əslində işğala dəstək veriblər, Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılmasında maraqlı olublar. Bu amil həm də onu göstərir ki, tarix boyu istənilən beynəlxalq məsələdə ədalətsizliyin, haqsızlığın yanında olan bu dövlətlər Qarabağ məsələsində də dini təəssübkeşlik mövqeyindən çıxış edərək işğala dəstək veriblər.

Lakin tarixi reallıq həm də onu təsdiq edir ki, Qərbin haqsızlığına və məkrinə qalib gəlmək mümkündür. Necə ki, 44 günlük müharibədə Azərbaycan Ermənistanı darmadağın etməklə, o cümlədən bu ilin sentyabr ayında Qarabağda erməni separatizminin kökünü kəsməklə həm də Qərbin sözügedən siyasi mərkəzlərinin riyakarlığına qalib gəldi. Ərazi bütövlüyünü bərpa etməklə, Qarabağda separatçılığa son qoymaqla Azərbaycan həmin mərkəzlərin onilliklər boyu yürütdükləri məkrli siyasətlərini ifşa etdi.

Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası bölgədə tarixi reallıqlar yaratmaqla Azərbaycanın dünyada reytinqini yüksəldib. Bu reallıqlar həm də Ermənistanın işğalçı dövlət olduğunu bütün dünyaya daha yaxından tanıdıb və elə buna görə də onu beynəlxalq münasibətlərdə hörmətsiz subyektə çevirib.

Qarabağ məsələsində Azərbaycana məğlub olan Qərbin bu ermənipərəst siyasi dairələri isə reallıqlardan nəticə çıxarmaq istəməyərək, riyakar əməllərini davam etdirirlər. Qeyd etdiyimiz kimi, Azərbaycan öz maraqlarını tam təmin edib və bundan sonra dövlətimizin prioritetləri azad edilmiş ərazilərin bərpası, iqtisadi inkişafın davamlılığının təmin edilməsidir. Lakin son aylarda Qərb siyasi mərkəzləri, o cümlədən Avropa İttifaqı tərəfindən guya Azərbaycanın Ermənistana hücum edəcəyi barədə reallıqdan uzaq olan saxta və qərəzli informasiyaların beynəlxalq ictimai rəyə ötürülməsinə cəhd edilir. Bu baxımdan, Ermənistana Avropa İttifaqının (Aİ) missiyasının göndərilməsi, bu məsələyə ABŞ və onun marioneti olan Kanadanın xüsusi dəstək verməsi bir daha Qərbin bu siyasi dairələrinin ikiüzlülüyündən, haqqın deyil, haqsızın tərəfində olmalarından xəbər verir. 30 ilə yaxın müddətdə ölkəmizin ərazilərinin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasına biganə yanaşması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və insanlıq əleyhinə cinayətləri fonunda Aİ-nın Ermənistana dəstəyi bu qurumun qərəzli siyasətinin və ikili standartlarının bariz nümunəsidir. Son olaraq bu günlərdə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirilmiş regiondakı reallıqları qəsdən təhrif edən ittihamlar bu qurumun Azərbaycana qarşı qərəzli münasibətindən xəbər verir.

Qərbin Ermənistanı qorumaq adı altında məlum davranışları, o cümlədən Fransa tərəfindən bu ölkəyə hərbi texnika göndərilməsi regiondakı vəziyyəti gərginləşdirmək məqsədlərinə xidmət edir. Əlbəttə, nəinki bu kimi addımlarla, ümumiyyətlə, heç bir halda Azərbaycana təsir və ya təzyiq etmək mümkün deyil. Azərbaycan Qərbin məkrini darmadağın edib və bundan sonra da edəcək. Vəziyyətin gərginləşməsi isə yalnız Ermənistanda baş verə bilər. Çünki Qərbin burada möhkəmlənməyə çalışması maraqların toqquşmasına görə, əvvəl-axır Ermənistan daxilində qanlı ssenarilərin yaşanmasını istisna etmir.

**"Azərbaycan"**

# Səyyar qəbullar

Həyatda yaşayan hər kəs özünəməxsus bir tərzdə çətinliklərlə, problemlərlə qarşılaşır. Yaşadığı dövrdə isə onları həll etmək üçün mübarizə aparır. Bəzən elə problemlərlə qarşılaşır ki, onun həlli tək onun mübarizəsi ilə həll oluna bilmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən xeyirxah insanlar ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.


Qəbələ şəhəri.




Çarxana kəndi.




Seyidqışlaq kəndi.

Bu ilin noyabr ayında səyyar qəbullar Qəbələ şəhərində, Çarxana və Seyidqışlaq kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

**"Qəbələ"**

**Fotolar S. Umuyevindir.**